№ 19-20 (803) 31 oktyabr 2024-cü il   Qəzet 1991-ci ildən nəşr olunur   www.health.gov.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



"Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI 2



"Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi" publik hüquqi şəxsin NİZAMNAMƏSİ 2



Milli Məclisin Səhiyyə komitəsinin üzvləri müəyyənləşdi 5

# Birinci vitse-prezident Mehriban Əliyeva Talassemiya Mərkəzində olub



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri oktyabrın 31-də Talassemiya Mərkəzində olublar.

2



## Azərbaycan və Belarus səhiyyə nazirlikləri arasında 2024-2025-ci illər üçün əməkdaşlığa dair Proqram ("Yol Xəritəsi")" imzalanıb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun başçılıq etdiyi nümayəndə heyətinin 3 oktyabr tarixində Belarus Respublikasına səfəri çərçivəsində iki ölkə arasında bir sıra istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.

Səh. 5

## Şuşada türk dövlətləri səhiyyə nazirlərinin IV iclası keçirilib



Türk Dövlətləri Təşkilatının (TDT) və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası keçirilib.

Səh. 6-7

## TDT üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri Birgə Bəyannamə qəbul ediblər



7

*Aforizm*

*Tək bir müəllimi - təbiəti dinlə.*

*Rembrandt*

Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az

# Birinci vitse-prezident Mehriban Əliyeva Talassemiya Mərkəzində olub



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri oktyabrın 31-də Talassemiya Mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezidentə və ailə üzvlərinə Mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Mehriban Əliyeva tibb müəssisəsindəki Transplantologiya şöbəsində, yeni açılan Reanimasiya şöbəsində və Böyüklər üçün stasionar şöbədə olub, burada müalicə alan pasiyentlərlə, tibb işçiləri ilə söhbət edib, müalicə prosesinin gedişi ilə maraqlanıb.

Birinci vitse-prezidentə məlumat verilib ki, Talassemiya Mərkəzi bu xəstəliyə düçar olanların müalicəsində mühüm rol oynamaqla yanaşı, həm də xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstəkdir.



Mehriban Əliyeva Heydər Əliyev Fondunun Mərkəzin fəaliyyətinə və ümumiyyətlə, səhiyyəyə daim önəm verdiyini bildirib.

Qeyd edək ki, tibb müəssisəsində görülən işlər, aparılan islahatlar, burada müalicə alan xəstələrin səhhəti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən daim diqqət mərkəzində saxlanılır. Fondun “Talassemiyasız həyat naminə” proqramı çərçivəsində inşa edilən Talassemiya Mərkəzində xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi, Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi üçün görülən tədbirlər talassemiya xəstəliyinin profilaktikasında əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, 2009-cu ildən istifadəyə verilən Talassemiya Mərkəzi Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısının alınması istiqamətində əhalinin maarifləndirilməsinə və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə xidmət edir.




## “Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi” publik hüquqi şəxsin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*

“Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 may tarixli 62 nömrəli Fərmanının 4.2.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi” publik hüquqi şəxsin Nizamnaməsi” təsdiq edilsin (Əlavə olunur).

**2.** Müəyyən edilsin ki, Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi publik hüquqi şəxsin nizamnamə fondu 100 000 (bir yüz min) manat təşkil edir və Mərkəzin əsas vəsaiti hesabına formalaşır.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 16 oktyabr 2024-cü il*
*№ 456*

## “Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi” publik hüquqi şəxsin NİZAMNAMƏSİ

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 oktyabr tarixli 456 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

**1. Ümumi müddəalar**

1.1. “Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi” publik hüquqi şəxs (bundan sonra - Mərkəz) “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tibb müəssisələrinin akkreditasiyası, tibbi xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi üzrə tədbirlər görülməsi, habelə tibb müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişafı ilə bağlı dəstək xidmətlərinin göstərilməsi sahələrində (bundan sonra - müvafiq sahədə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Mərkəz Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, “Publik hüquqi şəxslər haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını,

*(Davamı 3-cü səhifədə)*

# "Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi" publik hüquqi şəxsin NİZAMNAMƏSİ

*(Əvvəli 2-ci səhifədə)*

həmçinin sərəncamlarını, bu Nizamnaməni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, Nazirliyin qərar, əmr və sərəncamlarını rəhbər tutur.

1.4. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Mərkəz ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Mərkəz bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Mərkəzin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Qanuna uyğun olaraq Mərkəzin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Mərkəz məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Mərkəzin rəsmi adı aşağıdakı kimidir:

1.8.1. tam halda - "Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi" publik hüquqi şəxs;

1.8.2. ingilis dilində tam halda - "Center for Accreditation of Healthcare Institutions and Quality Control" public legal entity.

1.9. Mərkəz Bakı şəhəri, H.Zərdabi küçəsi, 96 ünvanında yerləşir.

**2. Mərkəzin fəaliyyət istiqamətləri**

2.1. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əhaliyə tibbi xidmət göstərən tibb müəssisələrinin akkreditasiyasını həyata keçirmək;

2.1.2. tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinə nəzarəti həyata keçirmək;

2.1.3. tibbi xidmətlərin keyfiyyətinə dair normativ hüquqi bazanın formalaşdırılmasında və təkmilləşdirilməsində iştirak etmək;

2.1.4. tibbi xidmətlərin normativ hüquqi aktlara uyğunluğunun təmin edilməsinə dair tibb işçilərinin bilik və bacarıqlarının artırılması istiqamətində konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

2.1.5. qanunla müəyyən edilmiş qaydada praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan tibb mütəxəssislərinin sertifikasiyasını həyata keçirmək, onların davamlı peşəkar inkişafı istiqamətində tədbirlər görmək;

2.1.6. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq özəl tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan xidmətlərə və işlərə lisenziyaların, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy vermək;

2.1.7. bu Nizamnamədə nəzərdə tutulmuş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Mərkəzin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Mərkəzin vəzifələri aşağıdakılardır:

3.1.1. əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin, tibb müəssisələrinin fəaliyyətinin normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi və əhalinin yüksək keyfiyyətli tibbi xidmət göstərən tibb müəssisəsi tərəfindən müayinə və müalicə olunması üçün seçim hüququnun təmin edilməsi məqsədilə tibb müəssisələrinin akkreditasiyasını hər 5 (beş) ildən bir həyata keçirmək;

3.1.2. tibb müəssisələrinin fəaliyyətinin normativ hüquqi aktların tələblərinə uyğunluğunu müəyyən etmək, o cümlədən tibb xidmətlərinin keyfiyyətinə nəzarəti və qiymətləndirməni həyata keçirmək;

3.1.3. tibbi xidmətlərin keyfiyyətinə dair qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla aidiyyəti üzrə sənədlər hazırlamaq və Nazirliyə təqdim etmək;

3.1.4. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 49-1-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, əhaliyə keyfiyyətli tibb xidmətinin göstərilməsinin təmin edilməsi və Azərbaycan Respublikasında praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması məqsədilə həmin şəxslərin (işçilərin) sertifikasiyasını həyata keçirmək, onların davamlı peşəkar inkişafı istiqamətində tədbirlər görmək;

3.1.5. özəl tibb fəaliyyəti üzrə göstərilən xidmətlərə və görülən işlərə lisenziyaların, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy vermək;

3.1.6. tibbi xidmətlər üzrə vahid təsnifat sisteminin tətbiqi və beynəlxalq təsnifat sistemləri ilə əlaqələndirilməsinə dair Nazirliyə təkliflər vermək, həmçinin tibb müəssisələrində istifadə edilən elektron informasiya sistemləri ilə əlaqələndirilmiş fəaliyyəti həyata keçirmək;

3.1.7. tibb müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin yaradılmasına metodiki kömək göstərmək;

3.1.8. klinik protokolları hazırlamaq və təsdiq üçün Nazirliyə təqdim etmək;

3.1.9. tibbi yardımın təşkilinə dair təkliflər hazırlamaq və Nazirliyə təqdim etmək;

3.1.10. tibbi xidmətlərin keyfiyyətinin artırılması və akkreditasiyaya hazırlıq məqsədilə maarifləndirmə işini aparmaq;

3.1.11. akkreditasiyadan keçmiş tibb müəssisələri arasında sorğular keçirmək və onların problemlərini araşdırmaq;

3.1.12. əhalinin sağlamlıq vəziyyətinin göstəriciləri üzrə beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yüksəldilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsində aidiyyəti üzrə iştirak etmək;

3.1.13. tibb müəssisələrinin akkreditasiyasına dair statistik məlumatları hazırlamaq;

3.1.14. akkreditasiyadan keçmiş tibb müəssisələrinin adları və şəhadətnamələrini özünün rəsmi internet səhifəsində yerləşdirmək;

3.1.15. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.16. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Mərkəzin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.17. fəaliyyət istiqamətlərinə uyğun olaraq inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.18. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.19. müvafiq sahədə fəaliyyətinin təmin edilməsi məqsədilə müvafiq elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.20. Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.21. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Mərkəz əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.22. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılması, internet saytının yaradılması, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.23. Mərkəzə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.24. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.25. Mərkəzin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.26. Mərkəzin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.27. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.28. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Mərkəzin aşağıdakı hüquqları vardır:

3.2.1. tibb müəssisələrinin akkreditasiyası və keyfiyyətə nəzarət müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. müvafiq sahədə icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.5. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda tibb müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumunu tutmaq;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.7. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.8. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.9. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

*(Davamı 4-cü səhifədə)*

# “Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi” publik hüquqi şəxsin NİZAMNAMƏSİ

*(Əvvəli 3-cü səhifədə)*

3.2.11. əməkdaşlarının dövlət təltiflərinə və digər mükafatlara təqdim edilməsi ilə bağlı Nazirliyə təkliflər vermək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.12. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.13. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq.

**4. Mərkəzin idarə olunması**

4.1. Mərkəz öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Mərkəzin idarəetmə orqanı İdarə Heyətidir.

4.3. İdarə Heyəti Mərkəzə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. İdarə Heyəti beş üzv - Azərbaycan Respublikasının səhiyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən, onun dörd müavinindən ibarətdir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Mərkəzin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. Mərkəzin inkişaf istiqamətləri barədə Nazirliyə təkliflər vermək, strateji məqsəd və planlarını müəyyən etmək;

4.5.3. Mərkəzin fəaliyyətinə nəzarət etmək;

4.5.4. Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinə dair Nazirliyə təkliflər vermək, o cümlədən Mərkəzin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.5.5. Nazirliyin razılığı ilə Mərkəzin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Mərkəzin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.6. Mərkəzin maliyyə planlaşdırmasını təsdiq etmək;

4.5.7. Mərkəzin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.5.8. Mərkəzin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. Mərkəzin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.10. Mərkəzin kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.11. Mərkəzdə daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.12. Nazirliyin razılığı ilə Mərkəzin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.13. Mərkəzin fəaliyyətini təşkil etmək;

4.5.14. aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.15. Mərkəzin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.16. bu Nizamnamənin 3.1.23-cü yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.17. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.18. bu Nizamnamənin 3.1.15-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.19. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti sədrinin əmri ilə müavinlərindən biri icra edir.

4.7. İdarə Heyətinin sədri ayda azı 1 (bir) dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda iclasa sədrlik edənin səsi həlledicidir.

4.8. İdarə Heyətinin üzvlərinə və İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə İdarə Heyətinin iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.9. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.10. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla qərar qəbul edilə bilməz.

4.11. İdarə Heyətinin sədri:

4.11.1. Mərkəzin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.11.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.11.3. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.11.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.11.5. Mərkəzin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.6. Mərkəzin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.11.7. özünün və Mərkəzin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Mərkəzin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq üçün Nazirliyə təqdim edir;

4.11.9. Mərkəzin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.11.10. bu Nizamnamənin 4.5.11-ci yarımbəndində göstərilən şəxslər istisna olmaqla Mərkəzin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.11.11. Mərkəzin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.11.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Mərkəzin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.11.13. Mərkəzin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.11.14. Mərkəzin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.15. Mərkəzdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.16. Mərkəzdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.12. İdarə Heyətinin üzvləri:

4.12.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.12.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.12.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.12.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxılması barədə təkliflər verirlər;

4.12.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədlərlə tanış olurlar.

4.13. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. Mərkəzin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Mərkəzin nizamnamə fondunun məbləği 100 000 (bir yüz min) manatdır.

5.2. Mərkəzin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Mərkəz öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Mərkəz balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Mərkəz Qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Mərkəzin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Mərkəzin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Mərkəz “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tibb müəssisələrinin akkreditasiyası ilə bağlı dövlət rüsumu tutur.

5.7. Mərkəz tərəfindən görülən işlərin və göstərilən xidmətlərin qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

**6. Mərkəzin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Mərkəzin fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Mərkəzin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

**7. Mərkəzdə uçot və hesabat**

7.1. Mərkəz “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Mərkəz “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Mərkəz idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Mərkəz öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Mərkəzin ləğvi və yenidən təşkili**

Mərkəzin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Azərbaycan və Belarus səhiyyə nazirlikləri arasında «2024-2025-ci illər üçün əməkdaşlığa dair Proqram («Yol Xəritəsi»)» imzalanıb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun başçılıq etdiyi nümayəndə heyətinin 3 oktyabr tarixində Belarus Respublikasına səfəri çərçivəsində iki ölkə arasında bir sıra istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.**

Azərbaycan və Belarus səhiyyə nazirlikləri arasında "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə Belarus Respublikasının Səhiyyə Nazirlikləri arasında 2024-2025-ci illər üçün əməkdaşlığa dair Proqram ("Yol Xəritəsi")" imzalanıb.

Sənədi Azərbaycanın səhiyyə naziri Teymur Musayev və Belarusun səhiyyə naziri Aleksandr Hocayev imzalayıblar.

Səhiyyə sahəsində əməkdaşlığa dair "Yol Xəritəsi"ndə akademik və elmi mübadilə, tibbi kadrların hazırlanması, əczaçılıq sənayesi, səhiyyə sistemlərinin rəqəmsallaşdırılması kimi əməkdaşlıq istiqamətləri müəyyən edilib.

Eyni zamanda, sənəd tibbin onkologiya, transplantologiya, kardiologiya, neyrocərrahiyyə və s. sahələrində çalışan mütəxəssis və həkimlərlə təcrübə mübadiləsi və ixtisasartırma, eləcə də elmi-tədqiqat institut və mərkəzləri ilə əməkdaşlıq istiqamətləri üzrə məlumat mübadiləsini özündə ehtiva edir.

# Milli Məclisin Səhiyyə komitəsinin üzvləri müəyyənləşdi

Azərbaycan Respublikası Milli Məclisi "Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsi üzvlərinin seçilməsi haqqında" Qərar qəbul edib.

Milli Məclisin sədri Sahibə Qafarovanın imzaladığı Qərara əsasən, Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Səhiyyə komitəsinin üzvləri seçiliblər:

Əfəndiyeva Günay Elçin qızı,
İbrahimqızı Məlahət İbrahim qızı,
Qafarov Kamaləddin Nəsrəddin oğlu,
Məmmədli Müşfiq Fazil oğlu,
Məmmədov İlham Kazım oğlu,
Məmmədov Soltan Teymur oğlu,
Rafailov Anatoliy Xaimoviç,
Vəliyeva Pərvanə Bulut qızı.

Xatırladaq ki, bundan əvvəl deputatlar Əhliman Əmiraslanov Səhiyyə komitəsinin sədri, Rəşad Mahmudov sədr müavini təsdiq edilmişdilər.

# Səhiyyə Nazirliyində Rusiya Milli Tibbi Tədqiqat Radioloji Mərkəzinin baş direktoru ilə görüş keçirilib

**Səhiyyə Nazirliyində Rusiya Milli Tibbi Tədqiqat Radioloji Mərkəzinin (NMRRC) baş direktoru, akademik Andrey Kaprinlə görüş keçirilib. Görüşdə həmçinin Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əliyev də iştirak edib.**



Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurla inkişaf etdiyini vurğulayıb: "Ölkələrimiz arasında sıx əlaqələr səhiyyə, o cümlədən onkologiya sahəsində əməkdaşlığın geniş spektrini müəyyən edir".

Teymur Musayev İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının əhəmiyyətini də qeyd edib: "Bu təhsil ocağını bitirən həkimlər ölkə səhiyyəsinin inkişafına mühüm töhfə verirlər".

Nazir çıxışında Azərbaycanda xərçəng xəstəliklərinin müalicəsi üzrə ciddi tədbirlərin həyata keçirildiyini və bu işin sistemli şəkildə davam etdirildiyini vurğulayıb: "Azərbaycanda onkoloji xidmət böyük və uğurlu inkişaf yolu keçib. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində hazırda Milli Onkologiya Mərkəzi ən müasir avadanlıqla təchiz olunub. Mərkəz ölkə əhalisinə yüksəkixtisaslı onkoloji yardımın həyata keçirilməsində elmi-metodik və profilaktik işlərin koordinasiyası ilə məşğul olan əsas qurumdur."

Rusiyanın Milli Tibbi Tədqiqat Radioloji Mərkəzinin yüksək peşəkar kadrları ilə tanındığını vurğulayan Azərbaycanın səhiyyə naziri onkologiya, radiologiya və urologiya sahəsində birgə elmi tədqiqatların həyata keçirilməsinin vacibliyini qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Andrey Kaprin belə görüşlərin təcrübə və bilik mübadiləsi baxımından çox vacib olduğunu vurğulayıb. NMRRC-nin baş direktoru rəhbərlik etdiyi Mərkəzin fəaliyyəti haqqında da ətraflı məlumat verib. Bildirib ki, NMRRC-nin əsas fəaliyyəti ümumdünya onkologiya və radiologiyanın nailiyyətlərinə söykənərək, ən müasir üsul və texnologiyalardan istifadə etməklə xəstələrin müayinə və müalicəsini təmin etməkdir.

NMRRC-nin baş direktoru həmçinin Milli Onkologiya Mərkəzində onkoloji xəstələrin yüksək keyfiyyətli müalicəsi üçün yaradılan müasir şəraitin dünya standartları səviyyəsində olduğunu bildirib.

Sonda tərəflər prioritet istiqamətlər üzrə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# Türk Dövlətləri Təşkilatı ölkələrinin səhiyyə nazirlərinin ikitərəfli görüşləri keçirilib

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayev öz həmkarları Türkiyənin səhiyyə naziri Kemal Memişoğlu, Özbəkistanın səhiyyə nazirinin birinci müavini Davron Sultanov, Qazaxıstanın səhiyyə vitse-naziri Yerbol Ospanov, Qırğızıstanın səhiyyə naziri Alımkadır Beyşenaliyev və Şimali Kipr Türk Respublikasının səhiyyə nazirinin müavini Düriye Deren Oygarla ikitərəfli görüşlər keçirib.**



Konstruktiv və qarşılıqlı anlaşma mühitində keçən görüşlər zamanı səhiyyə və tibb elmi sahəsində ölkələr arasında əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf perspektivləri, uğurlu təcrübə mübadilələri və mütərəqqi nailiyyətlərin qarşılıqlı tətbiqi imkanları müzakirə olunub.

İkitərəfli görüşlərdə Teymur Musayev TDT çərçivəsində vahid tibb elmi məkanının yaradılmasının və vahid rəqəmsal səhiyyə standartlarının hazırlanmasının vacibliyini qeyd edib. Transplantologiyanın müasir tibbin ən sürətlə inkişaf edən sahələrindən biri olduğunu vurğulayan nazir bu sahədə birgə sistemin yaradılmasına dair imzalanan sənədin önəmini diqqətə çatdırıb.

Öz növbəsində TDT-nin üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirləri həmin gün keçirilmiş iclasın səhiyyə sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addım olduğunu qeyd ediblər. Görüşlər zamanı yoluxucu xəstəliklərin qarşısının alınması, əczaçılıq sənayesinin inkişafı və dərman vasitələrinin təhlükəsizliyinin təmin edilməsi sahəsində birgə proqram və təşəbbüslərin əhəmiyyəti vurğulanıb. Həmçinin səhiyyə və müalicə turizminin rəqəmsallaşdırılması sahəsində əməkdaşlığın gücləndirilməsinə də maraq ifadə olunub.

İclas çərçivəsində imzalanan sənədlərin və qəbul edilən qərarların mahiyyətini vurğulayan TDT üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirləri Azərbaycanın Türktransplant sisteminin yaradılmasına dair təşəbbüsünü yüksək qiymətləndiriblər.

# TDT ölkələri səhiyyə nazirləri Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər





Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclasında iştirak etmək üçün ölkəmizə gələn Türk Dövlətləri Təşkilatının Baş katibi, Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Respublikasının səhiyyə nazirləri və Macarıstanın nümayəndəsi tədbir ərəfəsində Fəxri Xiyabanda Türk dünyasının böyük oğlu və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, tər gül dəstələri düzüblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Şəhidlər Xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban verən qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə güllər düzülüb.

Şəhidlər xiyabanında 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə həlak olan qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılan “Türk şəhidliyi” abidəsini ziyarət edən qonaqlar abidənin önünə gül dəstələri düzüblər.

Nümayəndə heyətləri həmçinin dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Məlumat verilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

# Şuşada türk dövlətləri səhiyyə nazirlərinin IV iclası keçirilib

**Türk Dövlətləri Təşkilatının (TDT) və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası keçirilib.**




Tədbirdə TDT-nin baş katibi, qurumun üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirləri, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi, həmçinin müxtəlif ölkələrdən dəvət olunan elm adamları iştirak ediblər.

Əvvəlcə Türk Dövlətləri Təşkilatının fəaliyyətini əks etdirən, həmçinin Şuşa şəhərinə həsr olunan videoçarxlar nümayiş olunub.

Açılış nitqi ilə çıxış edən TDT-nin baş katibi Kubanıçbek Ömüraliyev ötən həftə Türk Dövlətləri Təşkilatının yaradılması haqqında Naxçıvan Sazişinin imzalanmasının 15-ci ildönümünün qeyd olunduğunu vurğulayıb. Bildirib ki, təşkilata üzv dövlətlər arasında səhiyyə sahəsində ikitərəfli və faydalı əməkdaşlıq mövcuddur: “Bizim səylərimiz çoxtərəfli əməkdaşlığın dərinləşməsinə yönəlib”.

Kubanıçbek Ömüraliyev çıxışında TDT-yə üzv ölkələrdə səhiyyə sektorunun gələcək inkişafı üçün tədbirin uğurlu və səmərəli olacağına əminliyini ifadə edib. Baş katib müzakirə ediləcək məsələlərin və qəbul olunacaq qərarların təşkilatın gələcək işinə mühüm təkan verəcəyini vurğulayıb: “Səhiyyə sahəsində əməkdaşlığımızda mühüm nailiyyət kimi biz səhiyyə nazirlərinin “Türktransplant sisteminin yaradılmasına dair Niyyət Protokolu”nun imzalanması və “2025-ci il üçün səhiyyə sahəsində əməkdaşlıq üzrə TDT-nin İşçi qrupunun Fəaliyyət Planı”nın təsdiq edilməsi qərarlarını alqışlayırıq”.

Tədbirin açılışında çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev Türk Dövlətləri Təşkilatının səhiyyə nazirlərinin IV iclasının Şuşada keçirilməsinin tarixi və qürurverici hadisə olduğunu vurğulayıb. “Türk dünyasının böyük



oğlu və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyib: “Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”.

TDT-nin üzv ölkələrinin xalqları arasında möhkəm təməllər üzərində qurulan münasibətlərin vacibliyini qeyd edən Teymur Musayev səhiyyə sahəsində də əlaqələrin ən yüksək səviyyədə inkişafına zəmin yarandığını bildirib: “Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə Prezident İlham Əliyev Təşkilata üzv ölkələrlə bütün sahələrdə əlaqələrin inkişafının Azərbaycanın xarici siyasətinin prioritetləri arasında olduğunu vurğulayıb”.

Transplantologiyanın müasir tibbin ayrılmaz hissəsi olduğunu qeyd edən Teymur Musayev deyib: “Bu gün səhiyyə sahəsində münasibətlərin dərinləşməsinə və gələcək birgə fəaliyyətlərin inkişafına təkan verəcək Türktransplant sisteminin yaradılmasına dair Niyyət Protokolunun imzalanmasına şahidlik edəcəyik”.

Nazir TDT-yə üzv və müşahidəçi ölkələrinin birgə fəaliyyətinin əsas istiqamətləri kimi Vahid tibb elmi məkanının yaradılması, birgə elmi tədqiqatların aparılması, vahid tibb təhsili standartlarının müəyyənləşdirilməsi, davamlı tibbi təhsilin təmin edilməsindən danışıb: “Səhiyyədə informasiya-kommunikasiya texnologiyalarının sürətli tətbiqi TDT çərçivəsində vahid rəqəmsal səhiyyə standartlarının hazırlanması ilə sərhədlərarası pasiyent məlumatlarının mübadiləsini mümkün edir”.

*(Davamı 7-ci səhifədə)*

# Şuşada türk dövlətləri səhiyyə nazirlərinin IV iclası keçirilib




*(Əvvəli 6-cı səhifədə)*

"Bütün bunları nəzərə alaraq, Türk Dövlətləri Təşkilatı çərçivəsində imzalanan birgə sənədlərin müddəalarının qısa zamanda koordinasiyalı icrasının üzv ölkələrin səhiyyə sistemlərinin mümkün təhdidlərə qarşı dayanıqlılığını artıracağına və vahid standartlara əsaslanan səhiyyə ekosisteminin formalaşmasına əməli dəstək verəcəyinə inanırıq", - deyə Azərbaycanın səhiyyə naziri fikrini tamamlayıb.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov vurğulayıb ki, ərazi bütövlüyümüz tam bərpa edildikdən sonra regionda genişmiqyaslı yenidənqurma və bərpa işləri həyata keçirilir. Onun sözlərinə görə, azad edilən digər ərazilərdə olduğu kimi, Şuşada da səhiyyə ocaqlarının ən qabaqcıl standartlara uyğun olaraq inşası dövlətimiz üçün prioritet məsələlərdəndir.

Öz çıxışlarında Türkiyənin səhiyyə naziri Kemal Memişoğlu, Özbəkistanın səhiyyə nazirinin birinci müavini Davron Sultanov, Qazaxıstanın səhiyyə vitse-naziri Yerbol Ospanov, Qırğızıstanın səhiyyə naziri Alımkadır Beyşenaliyev, Şimali Kipr Türk Respublikasının səhiyyə nazirinin müavini Düriye Deren Oygar və Macarıstanın nümayəndəsi Türk Dövlətləri Təşkilatı və Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən keçirilən tədbirin yüksək səviyyədə təşkil olunduğunu və ölkələr arasında əməkdaşlığın müasir müstəvidə yeni prizmadan inkişafına təkan verəcəyini vurğulayıblar. Yerbol Ospanov öz çıxışında TDT-nin üzv və müşahidəçi ölkələrini Qazaxıstanın İlkin tibbi-sanitariya yardımı (İTSY) üzrə Dövlətlərin Koalisiyasının yaradılması təşəbbüsünü dəstəkləməyə və Koalisiyaya qoşulmağa dəvət edib. Onun sözlərinə görə, Koalisiya profilaktika və sağlamlığın qorunması prinsiplərini təşviq etmək, eyni zamanda, İTSY-nin inkişafı üçün birgə tövsiyələr hazırlamaq məqsədilə yaradılacaq.

Təşkilata üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirləri həmçinin Türktransplant sisteminin yaradılmasına dair Azərbaycanın təşəbbüsünü yüksək qiymətləndiriblər.

Daha sonra ÜST-nin Avropa üzrə Regional direktoru Hans Henri Klügenin tədbir iştirakçılarına ünvanladığı videomüraciəti dinlənilib. Tədbirin mahiyyətini vurğulayan Hans Henri Klüge iclasın işinə uğurlar arzulayıb.

Tədbir çərçivəsində "Türktransplantın təsis edilməsinə dair Niyyət Protokolu" imzalanıb. Çıxışçılar sənədin mahiyyətini qeyd edərək, müasir zamanda transplantologiya sahəsinin bir çox ciddi xəstəliklərin müalicəsi problemlərini kökündən həll etməyə imkan verdiyini vurğulayıblar. Həmçinin TDT-nin üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirliklərinin elmi tədqiqat institutları və mərkəzləri arasında onkologiya, kardiologiya, oftalmologiya, pediatriya, travmatologiya və ortopediya sahələrinə aid bir sıra Anlaşma Memorandumlarının imzalanılması baş tutub. Sənədlər tərəflər arasında intensiv əlaqələr qurmaqla, elmi tədqiqatların aparılması, bu ixtisaslarda fəaliyyət göstərən tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, kadr mübadiləsi, faydalı əməkdaşlığın təşviqini və gücləndirilməsini ehtiva edir.

İclasın sonunda Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri KİV nümayəndələrinin suallarını cavablandırıblar.

# TDT üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri Birgə Bəyannamə qəbul ediblər



**Şuşada keçirilən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclasında yekun sənəd - Birgə Bəyannamə qəbul olunub.**

Sənəddə TDT-nin Səhiyyə sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunun 2024-cü il üçün Fəaliyyət Planının təsdiqi, habelə Vahid tibb elmi məkanının yaradılması, birgə elmi tədqiqatların aparılması, vahid tibb təhsili standartlarının müəyyənləşdirilməsi kimi məsələlər öz əksini tapıb.

Bundan əlavə, Bəyannamədə Təşkilata üzv və müşahidəçi ölkələrinin milli qanunvericiliyinə uyğun olaraq, TDT çərçivəsində vahid rəqəmsal səhiyyə standartlarının hazırlanması ilə sərhədlərarası pasiyent məlumatlarının mübadiləsinin vacibliyi qeyd edilib. Həmçinin sənəddə "Türktransplant sisteminin təsis edilməsinə dair Niyyət Protokolu"nun, eyni zamanda, TDT-nin üzv və müşahidəçi ölkələrinin səhiyyə nazirliklərinin elmi tədqiqat institutları və mərkəzləri arasında Anlaşma Memorandumlarının imzalanılmasının əhəmiyyəti vurğulanıb.

Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclasının yekunlarına əsasən, təşkilatın səhiyyə nazirlərinin növbəti görüşünün Qazaxıstanda keçirilməsi qərara alınıb.

# Azərbaycan səhiyyə naziri ÜST Avropa Regional Komitəsinin 74-cü sessiyasının açılışında çıxış edib

**Oktyabrın 29-dan 31-dək Kopenhagendə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Komitəsinin 74-cü sessiyası keçirilib. Sessiyada ÜST-nin Avropa regionunda ali idarəetmə orqanı olan Regional Komitənin 53 üzv dövlətinin səhiyyə nazirləri, digər rəsmiləri və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.**






Azərbaycan Respublikası sessiyada səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Tədbirin açılışında Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus qlobal səhiyyənin cari problemlərini qeyd edərək, təşkilat tərəfindən bu çatışmazlıqların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Öz növbəsində Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə Regional direktoru, ÜST-nin Avropa Regional Komitəsinin 73-cü sessiyasının sədri Hans Henri Klüge Avropa Regional Bürosunun ötən sessiyadan indiyədək gördüyü işlərə dair hesabat məruzəsi ilə çıxış edib.

Tedros Adhanom Gebreyesus və Hans Henri Klügenin çıxışlarından sonra ÜST-nin Avropa Regional Komitəsinin sessiyasının gündəliyi müzakirəyə təqdim edilib. Sessiyanın gündəliyinə ÜST-nin Avropa Regional Komitəsinin 74-cü sessiyasının sədrinin seçilməsi, ÜST-nin Avropa regionunda səhiyyənin vəziyyəti və qarşıya qoyulan məqsədlərə nail olmaq üçün qurum tərəfindən "2020-2025-ci illər üzrə Avropa İş Proqramı"nın, "2030-cu ilə qədər olan dövr üçün Dayanıqlı İnkişaf sahəsinə dair Gündəlik" və həyata keçirdiyi digər strateji tədbirlərlə bağlı məsələlərin müzakirələri daxil edilib.

Səsvermənin nəticələrinə əsasən, Hans Henri Klüge yenidən Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin sədri seçilib.

Sessiyada çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, səhiyyə naziri Teymur Musayev tədbir iştirakçılarını salamlayaraq, ilk növbədə Hans Henri Klügeni yenidən bu vəzifəyə seçilməsi münasibətilə təbrik edib.

Nümayəndə heyəti rəhbərinin sözlərinə görə, sağlamlığın təşviqi milli səviyyədə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və daha güclü səhiyyə sistemlərini qurmaq üçün mühüm əhəmiyyət kəsb edir: "Qlobal miqyasda gözlənilən ömür uzunluğu artdığından, biz bütün vətəndaşların sağlamlığının qorunmasına xüsusi diqqət yetirməliyik. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nın hədəflərindən biri də vətəndaşların sağlam həyat tərzinin təmin edilməsidir".

Azərbaycanda milli səhiyyə sisteminin gücləndirilməsi, insan kapitalının inkişafı və səhiyyənin maliyyələşdirilməsi istiqamətində son 20 ildə mühüm işlərin görüldüyünü diqqətə çatdıran nazir ötən dövr ərzində 700-dən çox tibb müəssisəsinin tikildiyini və əsaslı təmir olunduğunu, müasir tibbi avadanlıqlarla təchiz edildiyini deyib.

Teymur Musayev 2021-ci il aprelin 1-dən etibarən bütün ölkə üzrə icbari tibbi sığortanın tətbiqinin Azərbaycanın sosial-iqtisadi həyatında mühüm hadisə olduğunu və səhiyyə sisteminin maliyyələşdirilməsi üçün yeni iqtisadi əsasların yaradıldığını qeyd edib.

Nazir çıxışında 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini xüsusilə vurğulayıb: "Dövlət başçısının Sərəncamında qeyd olunur ki, Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycan həmişə "yaşıl" gündəliyə sadiq olub və bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi bunun əyani sübutudur".

Azərbaycan nümayəndə heyətinin rəhbəri bildirib ki, ölkəmiz COP29-un sədri qismində "İqlim davamlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsü"nü irəli sürüb: "Bu təşəbbüs təhsil, səhiyyə və məşğulluq sahələrində sektorlararası əməkdaşlığın daha da möhkəmlənməsinə və bir-birini tamamlanmasına yönəlib".

Nazir "Böyük Qayıdış" Proqramı çərçivəsində Azərbaycan hökuməti tərəfindən işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində mühüm işlərin görüldüyünü diqqətə çatdırıb: "Əvvəllər işğal olunmuş torpaqların mina və partlayıcı maddələrlə həddsiz dərəcədə çirklənməsi Proqramda nəzərdə tutulan tədbirlərin reallaşmasına ciddi əngəl törədir. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra mina partlayışları nəticəsində əksəriyyəti mülki şəxslər olmaqla 381 vətəndaş həlak olub və ya ağır yaralanıb. Bu, bizim səhiyyəmiz üçün müəyyən çətinliklər yaradır".

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Ümumdünya Səhiyyə Təşkilatının ölkə ofisi ilə birgə azad edilən ərazilərə əhalinin sağlam inteqrasiyası üçün psixoloji dəstək layihəsinə başlayıb. "Hər kəs üçün sağlamlıq" gündəliyinə sadiq qalaraq, biz bütün ölkə üzrə keyfiyyətli tibbi xidmətlərə çıxışı təmin edəcəyik", - deyə Teymur Musayev fikrini tamamlayıb.

Tədbir panel sessiyalarda müxtəlif mövzular ətrafında müzakirələrlə davam etdirilib.

# Azərbaycan səhiyyə naziri ÜST Avropa Regional Komitəsinin sessiyasında ikitərəfli görüşlər keçirib

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Komitəsinin 74-cü sessiyası çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti bir sıra ikitərəfli görüşlər keçirib.**

İlk olaraq ÜST-nin Baş direktoru doktor Tedros Adhanom Gebreyesus ilə görüş baş tutub. Görüşdə Teymur Musayev ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əlaqələrin qurulmasına xüsusi qiymət verdiyini diqqətə çatdırıb və ötən müddət ərzində ÜST-nin Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Öz növbəsində doktor Tedros Adhanom Gebreyesus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ÜST ilə əməkdaşlığa verdiyi önəmi yüksək qiymətləndirib. ÜST-nin Baş direktoru gələcəkdə də təşkilatın Azərbaycanla birgə layihələrinin uğurla reallaşdırılacağına əminlik ifadə edib.

Daha sonra Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin yenidən seçilmiş sədri Hans Henri Klüge ilə görüş keçirilib. Hans Henri Klugeni bu vəzifəyə seçilməsi münasibətilə təbrik edən Teymur Musayev ölkəmizin nüfuzlu səhiyyə qurumları, o cümlədən ÜST ilə yüksək səviyyəli əlaqələri olduğunu xüsusi vurğulayıb. İnsan sağlamlığı üçün mühüm əhəmiyyət kəsb edən təşəbbüslərin gələcəkdə də uğurla həyata keçiriləcəyinə əminlik ifadə olunub.

Sessiya çərçivəsində həmçinin Latviyanın səhiyyə naziri Hossam Abu Merinin və Ruminiyanın səhiyyə naziri Aleksandru Rafilanın rəhbərlik etdiyi nümayəndə heyətləri ilə görüşlər olub. Görüşlər zamanı xalqlarımız arasında münasibətlərin inkişafında dövlət başçılarının müstəsna rolu vurğulanıb. Eyni zamanda, səhiyyə sahəsində əməkdaşlığın daha da inkişafı üçün geniş potensialın mövcudluğu qeyd edilib.

Görüşlərdə Azərbaycanın nümayəndə heyətinə xalqımızın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyi münasibətilə təbriklər ünvanlanıb. COP29 kimi mötəbər tədbirin mahiyyəti vurğulanaraq, Azərbaycanın hər zaman mühüm beynəlxalq tədbirləri ən yüksək səviyyədə təşkil etdiyi bildirilib.

# Azərbaycan səhiyyə naziri ÜST Avropa Regional Komitəsi sessiyasının texniki brifinqində çıxış edib



**Danimarkanın paytaxtı Kopenhagendə keçirilən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Komitəsinin 74-cü sessiyası çərçivəsində "Vahid Sağlamlıq" mövzusunda texniki brifinq keçirilib.**

Sessiyada çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, səhiyyə naziri Teymur Musayev müzakirə olunan mövzunun aktuallığını vurğulayaraq qeyd edib ki, Azərbaycan çoxsahəli əməkdaşlıq, siyasət, təcrübə və təhsil yolu ilə "Vahid Sağlamlıq" Konsepsiyasının həyata keçirilməsini təşviq edir: "Beynəlxalq tibbi-sanitariya qaydaları çərçivəsində bu istiqamətdə atılan mühüm addımlardan biri də 19 texniki sahəni əhatə edən Birgə Xarici Qiymətləndirilmədir. 2023-cü ilin may ayında yerli və sektorlararası beynəlxalq ekspertlərdən ibarət qiymətləndirmə qrupunun iştirak etdiyi məsləhətləşmə prosesi vasitəsilə Azərbaycanın imkanları, insan sağlamlığı sektoru da daxil olmaqla, 19 istiqamətdə yoxlanılıb. Birgə müzakirələr və ərazilərə səfərlər nəticəsində Beynəlxalq tibbi-sanitariya qaydalarının, "Vahid Sağlamlıq" Konsepsiyasının tətbiqinin təkmilləşdirilməsinə və Azərbaycan səhiyyə sisteminin fövqəladə hallar zamanı dayanıqlılığının gücləndirilməsinə yönələn bütün texniki istiqamətlər üzrə qiymətləndirmələrinə dair prioritet addımlar müəyyən edilib".

Nazirin sözlərinə görə, Azərbaycanda "Vahid Sağlamlıq" Konsepsiyasının həyata keçirilməsində növbəti addım koordinasiya mexanizmlərinin gücləndirilməsi, birgə nəzarət, monitorinq, potensialın, o cümlədən infrastruktur və insan resurslarının inkişafına yönələn Səhiyyənin Təhlükəsizliyinin Təmin edilməsi üzrə Milli Fəaliyyət Planının hazırlanması olacaq.

Teymur Musayev çıxışında noyabr ayında ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini vurğulayıb. Nazirin sözlərinə görə, COP29 qlobal ictimaiyyət üçün bir araya gəlmək, ümumi tərəqqimizi qiymətləndirmək və praktiki həlləri müəyyən etmək üçün mühüm bir fürsətdir.

"İlk dəfə olaraq "Vahid Sağlamlıq" yüksək səviyyəli COP29-un dəyirmi masasının diqqət mərkəzində olacaq. Görünməmiş ekoloji problemlər qarşısında "Vahid Sağlamlıq" yanaşması indi həmişəkindən daha aktualdır. Konsepsiya insan, heyvan və ətraf mühitin sağlamlığının qarşılıqlı əlaqəsini tanıyır. Bu da iqlim dəyişikliyinin həyatımızın hər aspektinə - biomüxtəlifliklə başlayaraq ərzaq təhlükəsizliyi və sağlamlığa təsir edən kompleks yanaşmanı nəzərdən keçirərkən xüsusilə vacibdir. Gəlin birlikdə müzakirələrimizi hər kəs üçün daha sağlam və dayanıqlı gələcəyə aparacaq konkret hərəkətlərə çevirək", - deyə Azərbaycanın səhiyyə naziri fikrini tamamlayıb.

# COP29 çərçivəsində tibbi xidmətlərin təşkilinə həsr olunmuş brifinq və mediatur keçirilib

**Yeni Klinikada COP29 çərçivəsində tibbi xidmətlərin təşkilinə həsr olunmuş brifinq və mediatur keçirilib. TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov, səhiyyə nazirinin müavini Nadir Zeynalov, tabeli tibb müəssisələrinin rəhbər heyəti, TƏBİB-in İcraçı direktorunun müavinləri, müşavirləri və struktur bölmə rəhbərləri, eləcə də media nümayəndələrinin və ictimai xadimlərin iştirakı ilə keçirilən brifinqdə tibbi xidmətlərin təşkili ilə bağlı ətraflı məlumatlar təqdim olunub.**




TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov brifinqdə COP29 tədbiri günlərində tibbi xidmətlərin keyfiyyətli şəkildə təmin olunması üçün zəruri olan fəaliyyətlərin yüksək səviyyədə təşkil edildiyini bildirib: "Dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29 Azərbaycana bütün sahələrdə bir sıra dividendlər qazandıracaq, ölkəmizin nüfuzunun daha da yüksəlməsinə öz töhfəsini verəcək. Belə miqyaslı tədbirin keçirilməsi üçün Azərbaycanın bütün dövlət və özəl qurumlarının üzərinə böyük məsuliyyət düşür. TƏBİB digər səhiyyə qurumları ilə yanaşı, zəruri tibbi xidmətləri keyfiyyətli şəkildə təşkil edib. Bu istiqamətdə Səhiyyə Nazirliyi və COP29 Əməliyyat şirkəti ilə koordinasiyalı olaraq çalışmışıq. TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrinin hər birinə baxış keçirilib və müəssisələrimiz zəruri tibbi xidməti təmin edə bilmək üçün hazır vəziyyətə gətirilib.

Yeni Klinikanın Təcili və təxirəsalınmaz tibbi yardım, Uşaq təcili tibbi yardım, stasionar, reanimasiya şöbələri və əməliyyatxanası tibbi xidmətə zərurət ehtimalını nəzərə alaraq tədbir üçün ayrılıb. Sabunçu Tibb Mərkəzinə təhkim edilən Məhəmmədi modul tipli xəstəxanada reanimasiya və stasionar tipli olmaqla fövqəladə hallar üçün 370 çarpayı təmin edilib. Hava-damcı yolu ilə yayılan infeksion xəstəliklərlə yoluxanlara keyfiyyətli xidmət üçün Kliniki Tibbi Mərkəzin nəzdində modul tipli xəstəxanada 10 çarpayı ayrılıb. Mərkəzi Neftçilər Xəstəxanasında bütün zəruri tibbi avadanlıqlarla təchiz olunmuş Yanıq şöbəsi yaradılıb. Zəhərlənmə ehtimalları üzrə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsində müvafiq tibbi xidmətin göstərilməsi üçün çarpayılar ayrılıb".

V.Qurbanov tədbir zamanı təcili tibbi yardım göstərəcək briqadalar barədə də məlumat verib: "60 briqada (həkim, orta tibb işçisi, sürücü daxil olmaqla), eləcə də 60 ədəd yeni ambulans ayrılıb ki, onun da 3-ü elektromobildir. Onu da qeyd edim ki, COP29 tədbiri ilə bağlı həm ayrılmış otellərdə, həm də tədbirin keçiriləcəyi məkanda təcili və təxirəsalınmaz tibbi yardım briqadaları xidmət edəcək. Bütün nöqtələr üzrə ambulanslar hərəkət edəcəyi halda isə əvəzedici ambulansların təhkim olunması nəzərdə tutulub".

TƏBİB-in İcraçı direktoru qeyd edib ki, təcili və təxirəsalınmaz tibbi yardım (TTTY) xidməti göstərəcək heyət üçün nəzərdə tutulan təməl həyat dəstəyi təkmil həyat dəstəyi üzrə təlimlər keçirilib, 448 nəfər həkim, orta tibb işçisi və sürücü bu təlimləri uğurla başa vurub. Xarici qonaqlarla daha rahat kommunikasiyanı təmin edə bilmək üçün 331 nəfər ingilis dili kurslarına cəlb olunub.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxış edərək COP29 tədbiri günlərində tibbi xidmətin yüksək səviyyədə təşkil olunması üçün bütün səhiyyə qurumlarının koordinasiyalı şəkildə fəaliyyət göstərdiyini bildirib: "Əminəm ki, bu missiyanın öhdəsindən uğurla gələcəyik. Həm TƏBİB-in, həm Səhiyyə Nazirliyinin tabeli tibb müəssisələri, həm də özəl xəstəxanalar olmaqla, toplam 9 xəstəxanada tibbi xidmətin təşkili üçün işlər görülüb.

On minlərlə qonağın şəhərimizə gələcəyini nəzərə alaraq, yaranmış təcili hallarla əlaqədar müalicə tədbirləri ilə yanaşı, profilaktika istiqamətində də işlər görülüb. Gələn şəxslər arasında epidemik xəstəlik daşıyıcıları da ola bilər. Buna görə Beynəlxalq Hava Limanında termometrlər quraşdırılacaq ki, ilkin mərhələdə hərarət ölçülsün. Daha detallı müayinə üçün zəruri diaqnostik testlərlə də təmin olunmuşuq. Şübhəli vəziyyət olarsa, həmin şəxslər təcrid olunaraq tez müalicəyə cəlb ediləcək.

Hazırda poliklinikalarda qrip əleyhinə peyvəndlənmə də davam etdirilir, bu da COP29 tədbirində xidmət edəcək vətəndaşlarımız arasında qrip xəstəliklərinin ağırlaşmalarının və yayılmasının qarşısının alınmasına kömək edəcək.

Mehmanxanalarda, ictimai iaşə obyektlərində də epidemik xəstəliklərin yayılmasının qarşısını almaq üçün dezinfeksiya işləri də aparılacaq".

Sonda TƏBİB-in İcraçı direktorunun müavini Araz Nəsirov geniş təqdimatla çıxış edərək, həm xəstəxanalarda tibbi xidmətin təşkilindən, həm də təcili tibbi yardım briqadalarının təhkim olunduğu ərazilərdən bəhs edib: "Yarana biləcək təcili halları nəzərə alaraq təcili tibbi yardım xidmətinin işinin düzgün qurulması çox önəmlidir. Bu məqsədlə "103" Çağrı Xidmətində ingilis dilini bilən işçilərin növbəli fəaliyyəti təşkil olunub, 60 briqada hazır vəziyyətə gətirilib, Heydər Əliyev adına Beynəlxalq Aeroportda, Heydər Əliyev Mərkəzində, Atletlər kəndində, "Koroğlu", "28 May", "Elmlər Akademiyası" metro stansiyalarında, eləcə də qonaqların məskunlaşdığı ərazilərdə tibbi xidmətin göstərilməsi üçün həkim məntəqələri təşkil edilib".

A.Nəsirov bildirib ki, qonaqların məskunlaşacağı mehmanxanalarda təcili tibbi yardım xidməti təşkil edilib, tədbirin keçiriləcəyi məkan və ərazilər üzrə ambulanslar, tibbi heyət ayrılıb, Bakı Olimpiya Stadionuna ambulanslar təhkim olunub və COP29 Qərargahında növbətçilik təşkil olunub.

Brifinqdə media nümayəndələrinin aidiyyəti üzrə sualları cavablandırılıb.

Daha sonra Yeni Klinikada yaradılan şəraitlə əyani tanışlıq baş tutub, eləcə də tədbir üçün ayrılan ambulanslara baxış keçirilib.

# Səhiyyə Nazirliyi Füzulidə əhalinin növbəti tibbi müayinələrini təşkil edib

**Səhiyyə Nazirliyi "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad olunan ərazilərdə səyyar müayinələr və sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyaları davam etdirir. Bu tədbirlərin başlıca məqsədi müxtəlif xəstəliklərin aşkarlanması ilə bağlı əhalinin kompleks müayinələrin aparılması, tibbi konsultasiyaların verilməsi və sağlamlıq məmnunluğunun təmin edilməsinə əlavə tövhə verməkdən ibarətdir.**

Növbəti belə tədbir Nazirliyin Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu tərəfindən həyata keçirilib. İnstitutun tibb heyəti Füzuli şəhərində sakinlərin müayinələrini aparıb.





Aksiya Füzuli rayonunda yaşayan vətəndaşların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi, onlarda zədələrin, qırıq və çıxıqların diaqnostikası və aşkarlanması, travmalar nəticəsində yaranan problemlərin aradan qaldırılması üçün dərhal tibbi müdaxilə və müalicə tədbirlərinin təmin edilməsi məqsədi ilə təşkil olunub. Bundan əlavə, aksiya posttravmatik reabilitasiya proqramlarının tətbiqi ilə vətəndaşların funksional imkanlarının bərpa olunması və həyat keyfiyyətinin artırılması, əhalinin travmatoloji zədələrdən qorunması üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və gələcəkdə belə problemlərin qarşısının alınması məqsədini daşıyıb.

Müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub. Bundan əlavə, onurğa, sinir, dayaq-hərəkət sistemi, bütün növ travmatoloji və ortopedik xəstəliklərin diaqnostikası aparılıb.

Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun həkimləri tədbir iştirakçılarına sağlamlıqlarının tez və effektiv şəkildə bərpasına nail olmaq üçün öz tövsiyələrini veriblər.

Aksiya zamanı 100-ə yaxın vətəndaş müayinələrdən keçirilib.

Qeyd edək ki, Səhiyyə Nazirliyi işğaldan azad olunan digər ərazilərdə də davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsini nəzərdə tutub.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### "Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu" PHŞ

*Ftizioterapiya üzrə elmi şöbə:*
Şöbə müdiri (ftiziatriya), t.ü.f.d. - 1.0 (müsabiqə)
*Ftiziocərrahiyyə üzrə elmi şöbə:*
Şöbə müdiri (ümumi cərrahiyyə), t.ü.f.d. - 1.0 (müsabiqə)
Elmi işçi (ümumi cərrahiyyə) - 1.0 (müsabiqə)
*Pulmonologiya üzrə elmi şöbə:*
Aparıcı elmi işçi (pulmonologiya, terapiya), t.ü.f.d. - 2.0 (müsabiqə)
*Elmi laboratoriya:*
Elmi işçi - 2.0 (müsabiqə)
Tibb bacısı (qardaşı) - 10.0
Feldşer-laborant - 4.0
Rentgen-texnik - 2.0
*Döş qəfəsi cərrahiyyəsi üzrə elmi şöbə:*
Aparıcı elmi işçi (ümumi cərrahiyyə), t.ü.f.d. - 2.0 (müsabiqə)
Elmi işçi (ümumi cərrahiyyə) - 1.0 (müsabiqə)

*Ünvan: E.Süleymanov küç. 2514 Baku AZ 1118*
*Əlaqə telefonu: (+99412) 4214498*

### "Respublika Narkoloji Mərkəzi" PHŞ

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Maştağa qəs, Axund Şeyx Hüseyn küç, 71*
*Əlaqə telefonu: 012 558 75 17*

### "Respublika Psixiatriya Xəstəxanası" PH

Tibb bacısı (qardaşı) - 10.0
Tibbi-statistik - 1.0
Labarant - 2.0

*Ünvan: Axund Şeyx Hüseyn küç. 6971*
*Əlaqə telefonu: (012) 455 10 91*

### Milli Onkologiya Mərkəzi

Elmi işçi - 1.0

*Ünvan: H.Zərdabi prospekti 317*
*Əlaqə telefonu: (+99412)537-08-11*

### 2 nömrəli Klinik Psixiatriya Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0 (3-cü Psixiatriya şöbəsi)

*Ünvan: Süleyman Rüstəm küç., 40*
*Əlaqə telefonu: (012) 440 42 21*

### Bakı Şəhər Dezinfeksiya Mərkəzi" PHŞ

Təlimatçı-dezinfektor - 5.0
Feldşer - 1.0
Tibbi-statistik - 1.0
Feldşer-laborant - 1.0
Entomoloqun köməkçisi - 1.0

*Ünvan: Fuad İbrahimbəyov, küç., 21*
*Əlaqə telefonu: (+99412) 594 70 08*

### "Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi" PHŞ

Laborant - 1.0 ("Lənkəran Regional Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi" PHŞ)

*Ünvan: Məmmədəli Şərifli küç., 159*
*Əlaqə telefonu: 012 422 80 76*

### Qusar Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Feldşer-laborant - 1.0

*Ünvan: Füzuli küç., 21*
*Əlaqə telefonu: (02338)5-49-07*

### Yevlax Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Feldşer-laborant - 1.0

*Ünvan: Q.Quliyev küç., 6*
*Əlaqə telefonu: (02233) 6-33-97*

### "Milli Hematologiya və Transfuziologiya Mərkəzi" PHŞ

Tibb bacısı (qardaşı) - 6.0
Laborant - 3.0

*Ünvan: Fətəli xan Xoyski küç., 128*
*Əlaqə telefonu: 1842*

### Sumqayıt Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi

Təlimatçı-dezinfektor - 1.0

*Ünvan: Natəvan küç., 30*
*Əlaqə telefonu: 65 5-94-05*

### "Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu" PHŞ

Mama - 1.0 (Hamiləliyin patologiyası şöbəsi)
Mama - 1.0 (I Doğum şöbəsi)

*Ünvan: Kazım Kazımzadə küç., 118*
*Əlaqə telefonu: (+994 12) 510 09 52*

### Göygöl Şəhəri Kardiorevmatoloji Sanatoriyası

Tibb bacısı (qardaşı) - 8.0 (kardiologiya şöbəsi)
Tibb bacısı (qardaşı) - 2.0 (fizioterapiya şöbəsi)
Masaj üzrə tibb bacısı (qardaşı) -1.0 (fizioterapiya şöbəsi)
Laborant -1.0 (laboratoriya şöbəsi) Əczaçı -1.0

*Ünvan: Hummel küç., 42*
*Əlaqə telefonu: (02220)5-31-70*

### ATU-nun Tədris Cərrahiyyə Klinikası

Tibb bacısı (qardaşı) - 15.0

*Ünvan: Ənvər Qasımzadə küç., 14*
*Əlaqə telefonu: 012 597 38 98*

### Masallı Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Tibbi-statistik - 1.0

*Ünvan: Həzi Aslanov küç., 3*
*Əlaqə telefonu: 025-215-74-62*


Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@health.gov.az
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 19000

# Səhiyyə Nazirliyində Azərbaycan Uşaqlarının VI Forumu iştirakçılarının bir qrupu ilə görüş keçirilib



**Səhiyyə Nazirliyində Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu iştirakçılarının bir qrupu ilə görüş baş tutub.**

Səmimi şəraitdə keçən görüşdə səhiyyə naziri Teymur Musayev uşaqların hüquqlarının qorunması və müdafiəsinin Azərbaycan dövlətinin prioritetləri sırasında olmasını diqqətə çatdırıb: "Prezident İlham Əliyev uşaqların sağlamlığının qorunmasına hər zaman xüsusi diqqət və qayğı göstərir. Dövlət başçısının Sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan edilib".

Tədbirin mahiyyətini vurğulayan Teymur Musayev deyib: "2009-cu ildən etibarən hər üç ildən bir Azərbaycan Uşaqlarının Ümumrespublika Forumu keçirilir. Forum uşaqların sosial fəallığının artırılması və dövlət siyasətinin həyata keçirilməsində onların fəal iştirakının təmin edilməsi, habelə dövlət orqanlarının, ictimaiyyət və vətəndaş cəmiyyətinin diqqətini uşaq hüquqlarının qorunmasına yönəltmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bununla da Forum uşaqlara öz problemlərini səsləndirmək, təşəbbüslərlə çıxış etmək və tövsiyələr vermək imkanı yaradır."

Səhiyyə naziri Forumu uşaqların həyatında əhəmiyyətli hadisə kimi qiymətləndirib, eyni zamanda, onların gələcək inkişafında mühüm rolu olacağına əminliyini bildirib.

"Azərbaycanın qəhrəman övladları Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində tariximizin ən şərəfli səhifələrindən birini yazıblar. Şəhidlərimizin qanı, eyni zamanda, əsgər və zabitlərimizin döyüşlərdə göstərdiyi böyük fədakarlığı hesabına 30 illik həsrətə son qoyulub. Ola bilsin ki, sizin aranızda kimsə Qarabağ Universitetinin məzunu olacaq, burada əyləşən şagirdlərdən biri gələcəyin tanınmış alimi və ya həkimidir", - deyə səhiyyə naziri fikrini tamamlayıb.

Səmimi görüşə görə nazirə təşəkkür edən uşaqlar dövlətimizin onlara olan qayğısını hər zaman hiss etdiklərini deyiblər. Uşaqlar həmçinin 2024-cü ilin Azərbaycanda «Yaşıl dünya naminə həmrəylik ili» elan edilməsi ilə əlaqədar müxtəlif tədbirlərdə fəal iştirak etdiklərini, bunun isə öz növbəsində onlarda bu mövzuya maraq doğurduğunu bildiriblər.

Forum mövzusuna toxunan qonaqlar qeyd ediblər ki, tədbirdə paytaxt və bölgələrdən 300-dən artıq, həmçinin qardaş Türkiyədən 10 uşaq iştirak edəcək. Çıxışçılar tədbirin unikal qabiliyyətə və analitik təfəkkürə malik uşaqların seçilməsi üçün yaxşı imkan olduğunu vurğulayıblar.

Sonra Teymur Musayev Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

Forum iştirakçılarına Səhiyyə Nazirliyi tərəfindən xatirə hədiyyələri təqdim olunub. Sonda qonaqlar Səhiyyə Tarixi Muzeyi ilə tanış olublar.

# "Zamin" Beynəlxalq İctimai Fondunun rəhbərliyi ilə görüş keçirilib

**Azərbaycan Səhiyyə Nazirliyində Özbəkistanın "Zamin" Beynəlxalq İctimai Fondunun İcra orqanının rəhbəri Tamila Aliyevanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə həmçinin Milli Məclisin Səhiyyə Komitəsinin üzvü, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov da iştirak edib.**

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev iki ölkə arasında əlaqələrin qədim tarixə malik olduğunu və yüksələn xətlə inkişaf etdiyini vurğulayıb: "Hazırda ölkələrimiz arasında əməkdaşlıq əlaqələri yüksək səviyyədə inkişaf edir. İkitərəfli münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri və müntəzəm görüşləri xüsusi rol oynayır".

İki qardaş ölkə arasında səhiyyə sahəsində uğurlu əməkdaşlığa toxunan nazir ötən ilin oktyabrında Daşkənddə Türk dünyasının dahi oğlu Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Özbəkistan - Azərbaycan Səhiyyə Dekadası"nın keçirildiyini xatırladıb: "Dekada çərçivəsində hər iki ölkənin tibb mütəxəssisləri Özbəkistan vətəndaşları üçün mərhələli şəkildə yüksək texnoloji avadanlıqlar vasitəsilə 100-dən artıq cərrahiyyə əməliyyatı icra ediblər, müayinə və müalicələr aparıblar. Eyni zamanda, Şuşa şəhərində keçirilən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası çərçivəsində Azərbaycan və Özbəkistan elmi tədqiqat institutları və mərkəzləri arasında bir sıra Anlaşma Memorandumları imzalanıb".

"Zamin" Beynəlxalq İctimai Fondunun Özbəkistanın davamlı inkişafının təşviqinə və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş fəaliyyətini yüksək qiymətləndirən Teymur Musayev ölkəmizdə səhiyyə sahəsində aparılan mühüm işlərdə Heydər Əliyev Fondu və onun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rolunu xüsusi vurğulayıb.

Sonda Azərbaycanın səhiyyə naziri ikitərəfli əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən "Zamin" Beynəlxalq İctimai Fondunun İcra Aparatının rəhbəri iki qardaş ölkə arasında əməkdaşlıq formatının bir çox dövlətlər üçün nümunəvi olduğunu vurğulayıb. Belə görüşlərin təcrübə və bilik mübadiləsi baxımından çox vacib olduğunu qeyd edən Tamilə Aliyeva "Zamin" Fondunun fəaliyyəti haqqında da ətraflı məlumat verib: "Beynəlxalq İctimai Fond ekoloji və sosial sahələrdə uzunmüddətli, strateji əhəmiyyətli və davamlı layihələrə diqqət yetirmək məqsədilə yaradılıb. "Zamin" Fondu ilə Heydər Əliyev Fondu arasında sıx əməkdaşlıq qurulub".

Öz çıxışında Özbəkistan Beynəlxalq İctimai Fondunun İcra orqanının rəhbəri təmsil etdiyi qurumun Azərbaycanın Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında maraqlı olduğunu bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən immunologiya, hematologiya və uşaq onkologiyası sahələrində birgə layihələrin həyata keçirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Səhiyyə Nazirliyinin nümayəndələri Ümumavropa Liderlik Akademiyasının təlim proqramının seçim mərhələlərini uğurla keçiblər

**2024-cü ilin iyul ayından başlayan Ümumavropa Liderlik Akademiyasının (ELA Akademiyası) təlim proqramında iştirak etmək üçün regionun 6 ölkəsindən irəli sürülən 31 namizəddən 14 nəfəri seçim mərhələlərindən uğurla keçərək, növbəti proqramda iştirak üçün dəvət alıb.**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsinin müdir müavini Təranə Əhmədova və Səhiyyə siyasəti şöbəsinin baş məsləhətçisi Nigar Nəzərli də növbəti mərhələyə yüksəliblər. Təcrübə proqramı (Tier2) Danimarkanın paytaxtı Kopenhagen şəhərinin Ümumdünya Səhiyyə Təşkilatının Regional Avropa Ofisində təşkil olunub.

ELA Akademiyasının Tier2 proqramı çərçivəsində təlim keçdiyi müddətdə səhiyyə sahəsində insan resursları üzrə göstəricilərin, o cümlədən Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququna malik şəxslərin dövlət reyestrinin təkmilləşməsi üzrə "Tibb müəssisələrinin standart əməliyyat prosedurlarının bazasının təşkili" mövzusunda layihə hazırlanıb.

Qeyd edək ki, ÜST-nin Regional Avropa Ofisinin əsas təşəbbüsü olan Ümumavropa Liderlik Akademiyası ölkə səviyyəsində maksimum nəticələr əldə etmək üçün insan resurslarının inkişafına yönələn üç səviyyəli proqramdır. Təcrübə proqramının əsas məqsədi Avropa regionunun səhiyyə sahəsində fəaliyyət göstərən dövlət orqanlarının rəsmi nümayəndələrinin qarşılıqlı faydalı bilik və təcrübə mübadiləsi, o cümlədən səhiyyə siyasəti istiqamətində birgə çalışmaq üçün potensialın artırılması və səmərəli layihələrin ərsəyə gəlməsi nəticəsində regionda səhiyyə sisteminin gücləndirilməsidir.




Pantec-DSR
Pantoprazole 40 mg
Domperidone 30 mg
GÜCLÜLƏR ARASINDA LAYİQLİ!
Pantec-DSR
Delayed Release Pantoprazole Sodium & Domperidone SR Capsules
V Mükəmməl kombinasiya
V Stabil, üzunmüddətli ikili təsir
V Rahat, birdəfəlik qəbul
V Yüksək təhlükəsizlik profili
HB Co LTD
Concept Pharmaceuticals Ltd.


RABELOC
Rabeprazole 20 mg
RABELOC 20
Uzunmüddətli antisekretor aktivlik
Digər dərman preparatları ilə qarşılıqlı təsirdə minimal risk
Rahat istifadə qaydası
Ona güvən, rahat ol!
HB Co LTD
CADILA PHARMACEUTICALS LIMITED


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribütoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az